# AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

*Ülviyyə ƏSGƏROVA*

*Təqdim olunan məqalədə Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin milli mədəniyyətimizə, incəsənət xadimlərinə olan böyük diqqəti və qayğısından bəhs olunmuşdur. Məqalədə Heydər Əliyevin siyasi fəaliyyətinin əsas məqsədlərindən biri kimi, Azərbaycan mədəniyyətinin təbliği, tanınması, qorunması məsələləri əks olunmuşdur. Bundan əlavə, məqalədə dahi şəxsiyyət Heydər Əliyevin xatirəsinə həsr olunan musiqi əsərləri haqqında məlumatlar verilmiş və bu əsərlərin janr müxtəliflindən bəhs olunmuşdur. Məqalədə Heydər Əliyevə həsr olunan əsərlər bəstəkarların dahi şəxsiyyətə hörmət əlaməti kimi dəyərləndirilmişdir.*

***Açar sözlər:*** *Heydər Əliyev, mədəniyyət, musiqi, incəsənət, şəxsiyyət*

*"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir"*

***Heydər Əliyev.***

Xalqımızın ümummilli lideri, ulu öndərimiz Heydər Əliyev Azərbaycanın ictimai-siyasi həyatında möhtəşəm və məqsədyönlü fəaliyyət göstərməklə yanaşı, milli mədəniyyətimizin daha yüksək zirvələr fəth etməsi istiqamətində möhkəm zəmin yaratmasını bu fikirlərlə təsdiqləyir. Heydər Əliyevin Azərbaycan milli mədəniyyətinə, tarixi-mədəni qaynaqlarına, incəsənət xadimlərinə, sənətkarlarına olan böyük diqqəti və qayğısı xüsusi əhəmiyyət kəsb edir. Bu mənada Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan mədəniyyətinin ölkə daxilində və dünya səviyyəsində təbliği istiqamətində, eləcə də özünün incəsənətə olan şəxsi marağı sayəsində çoxsaylı və mühüm işlər görmüşdür. Təkcə elə bu faktı demək kifayətdir ki, Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə 1981-ci ildə dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi şair-mütəfəkkir Nizaminin 840 illik yubileyinin Yunesko səviyyəsində keçirilməsi həmin dövrün ictimai-siyasi həyatının mürəkkəbliyinə baxmayaraq, göstərdiyi milli təəssübkeşlik və vətənpərvərlik mövqeyini nümayiş etdirir. Qeyd edək ki, 2021-ci ildə möhtərəm Prezident İlham Əliyevin qərarı ilə Nizaminin 880 illik yubileyi qeyd edilir. Hələ sovetlər dövründə milli professional musiqimizin yaradıcıları olan Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin yubiley tədbirlərinin keçirilməsi Heydər Əliyevin Azərbaycan mədəniyyətinin təbliği istiqamətində atdığı ən möhtəşəm addımlardandır. 1995-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin 110 illik yubileyinə həsr olunmuş təntənəli yubiley gecəsində nitqini bu sözlərlə başlaması ulu öndərin musiqi xadimləri haqqında da dolğun məlumatlara malik olduğunu ifadə edir: "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur" [5; 540]. 1993-cü ildə yenidən hakimiyyətə gələn Heydər Əliyev mədəniyyət və incəsənətlə bağlı bir sıra mühüm qanunları imzalamaqla müasir dövr Azərbaycan mədəniyyəti və incəsənəti qarşısında yeni mərhələni açmışdır. Həyatını və fəaliyyətini incəsənət kimi həssas bir sahəyə bağlayan insanların nəinki yaradıcı fəaliyyətini, eləcə də şəxsi məsələlərini öz diqqət və qayğısında saxlayan Heydər Əliyev hər zaman onlara böyük sevgi və məhəbbətlə yanaşmışdır. Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi dövrdə incəsənətin bütün sahələrində məqsədyönlü tədbirlər həyata keçirməyə nail olmuşdur. Müxtəlif illərdə Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinin respublika və beynəlxalq səviyyədə yubiley mərasimlərinin təşkil olunması ulu öndərin incəsənətə olan qayğı və diqqətinin nəticəsidir. Bu baxımdan məqalədə əsas diqqət Heydər Əliyevin musiqi sahəsi ilə bağlı fəaliyyətinə, Azərbaycan bəstəkarlarının yaradıcılığı ilə bağlı çıxışlarının işıqlandırılmasına, eləcə də ulu öndərə həsr olunmuş əsərlər haqqında müəyyən məlumatların verilməsinə yönəldilmişdir. Bununla da məqalənin həcmini nəzərə alaraq, müəyyən sahələr üzrə ümumi məlumatlar verməyə çalışmışıq. Onu da qeyd edək ki, Azərbaycan bəstəkarlarının yaradıcılığına dərindən bələd olan və onların bir çoxu ilə təmasda olan Heydər Əliyevin müxtəlif tədbirlərdə söylədiyi fikirlər böyük maraq doğurur. Bu baxımdan məqalədə ulu öndərin müəyyən fikirlərinə əsaslanmağa çalışmışıq.

Heydər Əliyev Azərbaycanın dünya səviyyəsində tanınan görkəmli musiqi xadimləri Bülbül, Qara Qarayev, Fikrət Əmirov, Niyazi və digərlərinin yubiley tarixlərinin beynəlxalq səviyyədə keçirilməsinə nail olmuşdur. Heydər Əliyevin dahi bəstəkar Qara Qarayevlə bağlı fikirləri də maraq doğurur: "...bu gün Qara Qarayevin anadan olduğu gündür. Mən Moskvada işləyərkən bunu yüksək səviyyələrdə də demişəm, bir də qeyd etmək istəyirəm ki, Qara Qarayev müasir dünyanın ən dahi bəstəkarlarından biri idi." [6; 540]. 1994-cü ildə Niyazinin ev-muzeyinin təntənəli açılışında çıxış edən Heydər Əliyev bu fikirləri söyləmişdir: "Mən Niyazi ilə üzün illər ərzində tanış idim, onunla lap gənc vaxtlarımızdan dostluq etmişəm. Sonra isə, yəni 25 il

ncə Azərbaycana rəhbərliyə başlayarkən və bütün sonrakı dövrdə Niyazini həmişə qiymətləndirmişəm, onunla sıx təmasda olmuşam"[5; 540].Eləcə də, Azərbaycan mədəniyyətinin inkişafında xüsusi yer tutan Şövkət Məmmədova, Rəşid Behbudov, Tofiq Quliyev, Şövkət Ələkbərova və digər sənətkarların yubiley mərasimlərinin respublikada təntənəli şəkildə keçirilməsi üçün hər bir şəraiti yaratmışdır.

Heydər Əliyev siyasətin sərt dünyasında olsa da, bu dahi şəxsiyyətin qəlbinin dərinliklərində həssas musiqi duyumu və incəsənətə maraq sığışmışdır. Heydər Əliyev daxildən gələn fövqəltəbii bir şəkildə sənətkarları duyaraq onları daha da yazıb-yaratmağa həvəsləndirirdi. Çox mürəkkəb iş qrafikinə baxmayaraq, bu dahi şəxsiyyət mümkün qədər keçirilən tədbirlərdə iştirak etməyə çalışır, hətta konsertlərdən sonra səhnə arxasına keçərək, tam səmimi bir mühit yaratmaqla sənətkarlarla ünsiyyət yaradırdı. Azərbaycan Bəstəkarlar İttifaqının sədri, professor, Xalq artisti Firəngiz Əlizadənin ümummilli lider haqqında xatirəsində deyilir: "Heydər Əliyev həyat yoldaşı Zərifə xanımla bu konsertlərdə müntəzəm iştirak edir, hər dəfə də musiqiçilərlə görüşüb, onlarla öz fikirlərini bölüşürdü. Hətta musiqi ilə bağlı çox ciddi suallar da verirdi. Odur ki, bütün musiqiçilər onunla görüşəndə özlərini sanki imtahan verirmiş kimi hiss edirdilər". [1]

Heydər Əliyev siyasi və dövlətçilik fəaliyyətinin bütün dövrlərində Azərbaycan musiqi mədəniyyətində yeni tərəqqi yolları açmış, musiqi sənətimizin inkişafı üçün əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Heydər Əliyevin siyasi fəaliyyətinin əsas məqsədlərindən olan Azərbaycan mədəniyyətinin təbliği, tanınması, qorunması və davamlı inkişafının uğurlu nəticələri professional musiqi mədəniyyətinə münasibətində də real şəkildə öz əksini tapmışdır.

Azərbaycan sənətçisi Heydər Əliyevin simasında musiqi sənətinin arxasında böyük və qüdrətli himayədarının, böyük dostunun varlığını həmişə hiss etmişdir. Bu isə hər bir sənətkarı bir yaradıcı şəxsiyyət və vətəndaş kimi ruhlandırmış, yeni əsərlərin yaranmasına doğru ilhamlandırmışdır. Bu barədə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, professor, Xalq artisti Firəngiz Əlizadənin fikirləri maraqlıdır: "Heydər Əliyev zəngin ensiklopedik biliyə malik olan dahi şəxsiyyət idi. Bu mənada incəsənətin bir qolu olan musiqi də onun diqqətindən kənar deyildi. O, musiqini çox sevir, bu sənətin sirlərini dərindən bilirdi. Görkəmli musiqiçilərlə yaxın ünsiyyəti vardı və münasibətlər musiqi sənətinin inkişafına xidmət edirdi. Məsələn, onun maestro Niyazi ilə dostluğu bir çox layihələrin həyata keçməsində mühüm rol oynamışdı". [1] Azərbaycanın xarici ölkələrlə sıx musiqi əlaqələrinin yaranmasını daim diqqətdə saxlayan Heydər Əliyev görkəmli sənətkarları respublikamıza dəvət edərək, mədəniyyətimizin beynəlxalq əlaqələrinin daha da genişlənməsinə şərait yaratmışdır. Bu baxımdan dünya şöhrətli violonçel ifaçısı və bəstəkar Mstislav Rastropoviçin şəxsən Heydər Əliyevin dəvətilə ölkəmizə gələrək konsert verməsi və ustad dərslər təşkil etməsi bunun bariz nümunəsidir. Məhz Rastropoviçin təfsiri ilə Azərbaycan bəstəkarlarının simfonik əsərlərinin Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında səsləndirilməsi, həmçinin xarici ölkələrdə də bəstəkarlarımızın əsərlərinin ifa olunması Azərbaycan professional musiqisinin müasir dövrdə dünya musiqisində tanınması və təbliği sahəsində xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyevin Rastropoviçlə yaranan şəxsi dostluq münasibətləri isə bilavasitə Azərbaycan musiqisinin beynəlxalq səviyyədə təbliğinə doğru istiqamətlənmişdir.

Heydər Əliyevin musiqiyə olan sevgisi tükənməzdir. Tarixin ən fenomenal şəxsiyyətlərindən olan Heydər Əliyevin "Küçələrə su səpmişəm" xalq mahnısını xüsusi bir hazırlıq olmadan və gözlənilmədən ifa etməsi bu dahi insanın həssas musiqi duyumunun göstəricisidir.

Təbiidir ki, sənətkarlar dahi şəxsiyyətə olan hörmət və ehtiramlarını ulu öndərə həsr etdikləri əsərlər vasitəsilə əbədiləşdirməyə çalışmışlar. Heydər Əliyevə ithaf olunmuş çoxsaylı musiqi əsərləri müstəqil ölkəmizin azad sənətkarlarının dahi şəxsiyyətə olan sənətkar sevgisinin bədii təzahürü kimi yaranmışdır. Bu əsərləri birləşdirən əsas xüsusiyyət Heydər Əliyev şəxsiyyətinin hərtərəfli cəhətlərini ifadə etməkdir. Bu əsərlərdə ulu öndərin şəxsiyyəti, onun incəsənət qarşısındakı böyük tarixi xidmətləri, müstəqil dövlət quruculuğundakı siyasi fəaliyyəti, vətən üçün yaratdıqları, ən əsası isə dahi insan kimi obrazının yaradılması öz əksini tapmışdır. Bu əsərlər bəstəkar qəlbinin dahi şəxsiyyətə olan dərin sevgisi və hörmətinin musiqili etirafı kimi səslənir. Məhz bu gerçəklikdən çıxış edərək, Heydər Əliyevə həsr olunmuş əsərlərdə ulu öndərin humanist və nəcib xarakteri, daxili mənəvi aləminin zənginliyi, cəmiyyətdə qazandığı nüfuz və sevgisi, xalq üçün əvəzsiz xidmətləri əksini tapmışdır.

Heydər Əliyevə həsr olunan əsərlər müxtəlif musiqi janrlarını əhatə edir: Simfonik, kamera-instrumental, xor, mahnı və romanslar, instrumental əsərlər olmaqla bütün janr sahələri üzrə yazılan çoxsaylı əsərlərdə Heydər Əliyev şəxsiyyəti hərtərəfli şəkildə əhatə olunmuşdur. Əsərlərdə mövzu müxtəlifliyi özünü büruzə verir. Bu da Heydər Əliyevin hərtərəfli şəxsiyyət və geniş fəaliyyətə malik siyasi xadim olması ilə əlaqədardır. Bu baxımdan yanaşdıqda əsərləri mövzu baxımından bir neçə istiqamət üzrə müəyyənləşdirmək olar:

1. Heydər Əliyevə həsr olunmuş iri həcmli bioqrafiq əsərlər;
2. Heydər Əliyevin tarixi şəxsiyyətinə və böyük humanistliyinə həsr olunmuş fəlsəfi əsərlər;
3. Vətəni, müstəqilliyi, qələbələri, nailiyyətləri vəsf edən və Heydər Əliyevə ithaf olunan əsərlər;
4. Heydər Əliyev haqqında xatirə (memorial) əsərləri.

Təbiidir ki, elmi məqalə çərçivəsində Heydər Əliyevə həsr olunmuş bütün bu əsərləri işıqlandırmaq qeyri-mümkün olduğu üçün onların bəzisinin üzərində dayanmaq istərdik. Əvvəlcə onu qeyd etməliyik ki, bu sadalanan əsərlər janr müxtəlifliyi baxımından seçilmişdir və geniş dinləyici kütləsinə daha çox tanış olan və ifa edilən əsərlərdir.

Heydər Əliyevə həsr olunan musiqi əsərlərindən bəhs edərkən, əvvəlcə dünya şöhrətli müğənni-bəstəkar Müslüm Maqomayevin "Azərbaycan" mahnısını xüsusilə qeyd etmək istərdik. Xalq şairi Nəbi Xəzrinin sözlərinə yazılmış bu mahnını Heydər Əliyev çox sevirdi və M.Maqomayevlə olan səmimi söhbətlərində bildirirdi ki, mahnıdakı doğma vətənə sevgi və onun əsrarəngiz təbiətinin ifadə olunması, coşğun təntənəli musiqi öz hissləri ilə uyğunluq təşkil edir.

Heydər Əliyevə həsr olunan simfonik əsərlər içərisində görkəmli bəstəkar Cövdət Hacıyevin "Onu zaman seçmişdir" adlanan VIII simfoniyası dahi şəxsiyyətin müdrikliyini ifadə edir.Üç hissəli simfoniyanın quruluşunda ənənəvi kompozisiya xüsusiyyətlərindən və kino sənətinin özəllliklərindən istifadə olunması təntənəli sintetik struktur yaradır. Belə ki, simfoniyanın III hissəsində musiqi ilə paralel ekranda xalqın sevimli rəhbəri Heydər Əliyevə həsr edilmiş kino-kadrlar keçərək, xüsusi təntənəli bayram atmosferi yaradır.

Heydər Əliyevin görkəmli bəstəkar Arif Məlikova xüsusi rəğbətlə yanaşaraq, əsərlərini yüksək qiymətləndirirdi. Arif Məlikovun müəllif gecəsində iştirak edən Heydər Əliyev çıxışı zamanı 1986-cı ildə bəstəkarın "Məhəbbət əfsanəsi" baletinin Moskvada tamaşasından bəhs edərək, böyük bir iftixar hissi keçirdiyini xatırlamışdır. Daha sonra Arif Məlikovun yaradıcılığına vurğunluğunu bildirən ulu öndər bu fikirləri bildirmişdir: "Arif Məlikov Azərbaycan üçün böyük milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam qətiyyətlə deyirəm. Biz onu qorumalıyıq, ona qayğı göstərməliyik." [5; 540]. Ulu öndərin belə böyük qayğı və diqqətinə qarşı Arif Məlikov öz ehtiramını əsərləri ilə bildirməyə çalışmışdır. Arif Məlikovun ümummilli lider Heydər Əliyevə həsr olunan "Əbədiyyət" adlı VIII simfoniyası struktur, musiqi dili baxımından orijinallığı ilə seçilir.

Ümumiyyətlə, Heydər Əliyevə həsr olunmuş musiqi əsərlərində ümummilli liderin mənalı ömür yolu, onun milli inkişaf, müstəqil dövlətçilik və sabitlik uğrunda mübarizə, vətənə və xalqa sönməz sevgisi, möhtəşəm tarixi şəxsiyyət kimi obrazı, siyasi portreti, ulu öndərə olan sənətkar sevgisi müxtəlif janrlarda canlandırılaraq, musiqinin zəngin bədii forması, dili və üslubu ilə işıqlandırılmışdır.

"Hər bir ölkənin mənəvi, mədəni həyatı da ölkənin səviyyəsini göstərir. Bu sahəyə daha böyük diqqət göstərilməlidir" fikirləri ulu öndərin mədəniyyət siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevə məxsusdur [10]. Milli-mənəvi dəyərlərimizə qayğı, onların qorunması və təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Məhz bu səylər nəticəsində Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil Azərbaycan mədəniyyət siyasəti xalqımızın milli dəyərlərini qorumağa, təbliğ etməyə yönəldilmişdir.

## ƏDƏBİYYAT


1. Abduləliyev A. Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti // "Musiqi dünyası" jurnalı, №1-2(35), 2008. - s.4-17.
2. Əliyeva N. Müstəqilliyin banisi // "Azərbaycan" qəz., Bakı, 2017, 9 may.
3. Həbibbəyli İ. Heydər Əliyevin dövlətçilik təlimində Azərbaycançılıq // "Azərbaycan" qəz., Bakı, 2017, 9 may.
4. Heydər Əliyev və mədəni irs. Bakı: 2014. - s. 265.
5. Heydər Əliyev və mədəniyyət. II cild.1997-1998. Bakı: 2008. s.540
6. Heydər Əliyev siyasəti: Tolerantlıq. - Bakı: 2015. - s.253.
7. Quliyev A. Heydər Əliyev Azərbaycan musiqi sənətinin böyük hamisidir // "Musiqi dünyası" jurnalı, №3-4, 2008. - s.18-19.
8. Məmmədova S. Azərbaycan musiqisinin inkişafında Heydər Əliyev mərhələsi. // "Konservatoriya", № 2 , 2018. Saytoqrafiya
9. https://mehribanaliyeva.preslib.az/media-c11ffd08f8.html
10. https://xalqqazeti.com/mobile/az/news/37492


### Роль Гейдара Алиева в развитии азербайджанской музыкальной культуры


*В статье рассказывается о большом внимании и заботе общенационального лидера азербайджанского народа, великого лидера Гейдара Алиева к нашей национальной культуре и артистам. В статье отражены вопросы пропаганды, признания и защиты азербайджанской культуры как одной из основных целей политической деятельности Гейдара Алиева. Кроме того, в статье приводится информация о музыкальных произведениях, посвященных памяти великой личности Гейдара Алиева, и рассматривается жанровое разнообразие этих произведений. В статье произведения, посвященные Гейдару Алиеву, оцениваются как знак уважения композиторов к гениальной личности .*



***Ключевые слова:*** *Гейдар Алиев, культура, музыка, искусство, личность*


### The role of Heydar Aliyev in the development of Azerbaijani music culture


*This article deals with the great attention and care of the national leader of the Azerbaijani people, great leader Heydar Aliyev to our national culture and artists. The article reflects the issues of propaganda, recognition, and protection of Azerbaijani culture as one of the main goals of Heydar Aliyev's political activity. In addition, the article provides information about musical works dedicated to the memory of the genius personality of Heydar Aliyev and discusses the variety of genre of these works. In the article, the works dedicated to Heydar Aliyev were evaluated as a sign of respect for the genius personality of the composers.*



***Keywords:*** *Heydar Aliyev, culture, music, art, personality*



Elmi rəhbər: BMA-nın professoru, fəlsəfə üzrə elmlər doktoru ***Mina Hacıyeva***